

# Paşa KƏRİMOV

**Azərbaycanın ədəbi ictimaiyyətinə ağır itki üz verib. Tanınmış ədəbiyyatşünas alim, mətnşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya üzrə elmlər doktoru, professor Paşa Kərimov vəfat edib.**

Paşa Əli oğlu Kərimov 1959-cu il fevralın 10-da Bakıda anadan olub. 132 saylı məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirib. 1982-ci ildən əmək fəaliyyətini AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə bağlamışdı. 1999-2003-cü illərdə İnstitutun elmi katibi, 2003-2011-ci illərdə elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. 2011-2014-cü illərdə Əlyazmalar İnstitutunun direktoru vəzifəsini icra edib. 2014-cü ildən ömrünün sonuna kimi İnstitutun direktor müavini vəzifəsində işləmişdir. Eyni zamanda İnstitutun əlyazmalar və əski çap kitabları şöbəsinin müdiri idi.

1991-ci ildə "Əlican Qövsi Təbrizinin "Divan"ının tekstoloji tədqiqi və elmi-tənqidi mətni" mövzusunda namizədlik, 2012-ci ildə isə "XVII əsr anadilli Azərbaycan lirikası" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. Klassik ədəbi abidələrimizin, o cümlədən Yusif bəy Ustaclu, Qövsi Təbrizi, Mürtəzaqulu xan Şamlu, Vəhid Qəzvini, Sadiq bəy Əfşar, Təsir Təbrizi və b. türkcə divanlarının, Mirzə İsmayıl Qasir və Mirzə Baxış Vadimin şeirlərinin araşdırılması, nəşri sahəsində böyük xidmətləri var. Xarici ölkələrin muzey və kitabxanalarında saxlanılan İmadəddin Nəsiminin anadilli divanının lirik şeirlər toplusu nüsxəsinin surətinin, Ətainin "Miniatürlü xəmsə"sinin, Əhməd Şövqi Təbrizinin divanının, Şah İsmayıl Xətainin və oğlu I Şah Təhmasibin ana dilində yazdıqları şeirlərinin, Şah İsmayılın nəvəsi İbrahim Cahinin divanının, "Əsli və Kərəm" və "Aşıq Qərib" dastanlarımızın XIX əsrdə ərəb qrafikası ilə yazıya alınmış variantlarının surətlərinin və s. aşkarlanmasına və AMEA-nın Əlyazmalar İnstitutuna gətirilməsinə nail olmuşdur. Bir çox beynəlxalq konfranslarda ölkəmizi layiqincə təmsil etmişdir. 2011-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Vatikan və Romada keçirilmiş Azərbaycan Mədəniyyəti Günlərində iştirak etmişdir.

2001-ci ildə gənc ədib kimi Prezident təqaüdünə, 2010-cu ildə "Tərəqqi" medalına, 2017-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü sammitində "Elm və texnologiya" nominasiyası üzrə xüsusi mükafata, bir çox fəxri fərman və diplomlara layiq görülmüşdür.

İstedadlı ədəbiyyat xadimi, səmimi, təvazökar insan Paşa Kərimovun işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

Allah rəhmət eləsin!

**Azərbaycan Yazıçılar Birliyi**